# Göygöldə "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş "dəyirmi masa" keçirilmişdir

**Rayon icra hakimiyyəti, Heydər Əliyev Mərkəzi, Gənclər Evi, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rayondakı müəssisələri və təhsil işçilərinin birgə iştirakı ilə Göygöldə "Hüquqi dövlət və demokratiya" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**



"Dəyirmi masa"da Ulu Öndər Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirələri birdəqiqəlik sükutla yad edildikdən sonra ölkəmizin inkişafından bəhs edən videoçarx nümayiş olunmuşdur.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığının təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik rolu oynadığını vurğulamışlar. Bildirilmişdir ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü ilə əlaqədardır. Bu tarix Konstitusiyamızın qüdrətini və tam suverenliyimizin bərpasını özündə ehtiva edir, Azərbaycanın gücünü və inkişafını bir daha nümayiş etdirməklə yanaşı, xalqımızın birliyini, həmrəyliyini göstərir.

Azərbaycan.- 2025.- 4 mart (№48).- S.11.